# GDU-da beynəlxalq konfrans keçirilib

**Gəncə Dövlət Universitetində (GDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mözsunda beynəlxalq konfrans keçirilib.**



Konfrans iştirakçıları öncə Gəncənin mərkəzi meydanında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş və abidə önünə gül dəstələri düzmüşlər. Sonra onlar universitetin V tədris korpusunda Ulu Öndərə həsr edilmiş kitab və rəsm əsərlərindən ibarət sərgiyə baxmışlar.

Beynəlxalq konfrans Dövlət himninin səsləndirilməsi ilə başlamışdır. Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan igidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Ardınca Heydər Əliyevin zəngin və çoxşaxəli siyasi fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilmişdir.

Türkiyənin Gəncədəki baş konsulu Recep Öztopun, Milli Məclisin deputatı Pərvin Kərimzadənin, İzmir Dokuz Eylül Universitetinin prorektoru Fatma Duyğunun, Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsinin akademik katibi Fuad Əliyevin, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasovun, akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun icraçı direktoru Məhəmməd Babanlının, dünyanın müxtəlif nüfuzlu elm və təhsil müəssisələrinin tanınmış alimlərinin iştirak etdikləri konfransı giriş sözü ilə GDU-nun rektoru Yusif Yusibov açaraq müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı, qüdrətlənməsi naminə göstərdiyi misilsiz xidmətlərdən danışmış və diqqətə çatdırmışdır ki, Azərbycanın bugünkü uğurları onun adı ilə bağlıdır.

Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop çıxışında Türkiyə-Azərbaycan əlaqələrinin çoxəsrlik tarixə malik olduğunu qeyd etmiş və bu əlaqələrin genişlənməsində Heydər Əliyevin misilsiz xidmətlərindən danışmışdır. Sonra Milli Elmlər Akademiyasının Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov, İzmir Dokuz Eylül Universitetinin prorektoru Fatma Duyğu və Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri professor, Əməkdar elm xadimi Vaqif Novruzov müxtəlif məruzələrlə çıxış etmişlər.

Beynəlxalq konfrans 15 bölmədə işini davam etdirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 9 may.- S.19.